**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANDA ƏRZAQ MƏHSULLARI İSTEHSALÇILARININ RƏQABƏT QABİLİYYƏTİNİN ARTIRILMASI İSTİQAMƏTLƏRİ

İxtisas: 5304.01- İqtisadi fəaliyyət növləri

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Ülvi Elçin oğlu Bilal**

Fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2026**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetinin "Aqrar iqtisadiyyat və turizm işi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Nizami Cəlal oğlu Qafarov**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, dosent
**Fikrət Vəli oğlu Quliyev**

iqtisad elmləri üzrə fəlsəfə doktoru
**Mətanət Samiq qızı Həsənova**

iqtisad elmləri üzrə fəlsəfə doktoru
**Səadət İntiqam qızı Hacıyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.46 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: ____________ AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: ____________ iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri: ____________ iqtisad elmləri doktoru, professor
**Möhübbət Musa oğlu Hüseynov**

## TƏDQİQAT İŞİNİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, ərzaq təhlükəsizliyinin təmin olunması və ixrac potensialının genişləndirilməsi müasir dövrdə strateji vəzifələrdən biri hesab olunur. Ərzaq məhsulları istehsalçılarının rəqabət qabiliyyətinin artırılması daxili bazarda istehlakçı tələblərinin ödənilməsi, beynəlxalq bazarlarda isə dayanıqlı mövqelərin qorunması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Ərzaq məhsulları istehsalçılarının rəqabətqabiliyyətliliyi iqtisadiyyatın davamlı inkişafında mühüm rol oynayır. Müasir iqtisadi nəzəriyyələr (M. Porter, P. Krugman, P. Nijkamp və s.) göstərir ki, rəqabət mühitinin formalaşması iqtisadi artımı stimullaşdırır, istehsalın səmərəliliyini artırır və ixrac potensialını gücləndirir. Azərbaycanın ərzaq məhsulları tstehsalı zəngin aqrar potensiala malik olsa da, onun rəqabət üstünlükləri hələ də tam şəkildə reallaşdırılmayıb, hansı ki, buna daima zərurət var. Bu səbəbdən mövzu elmi-nəzəri baxımdan yüksək aktuallıq daşıyır.

Azərbaycanın kənd təsərrüfatı potensialı və əlverişli coğrafi mövqeyi ölkənin ərzaq məhsulları istehsalında və ixracında mühüm üstünlüklər yaratsa da, istehsalçıların xarici və daxili bazarlarda dayanıqlı mövqelərinin qorunması üçün institusional islahatların dərinləşdirilməsi, keyfiyyət standartlarının təkmilləşdirilməsi və innovativ istehsal texnologiyalarının tətbiqi zəruri olaraq qalır.

Qlobal iqtisadi mühitin dərinləşən rəqabət şəraitində formalaşması fonunda, ərzaq məhsulları istehsalçılarının müasir tələblərə cavab verən şəkildə fəaliyyət göstərməsi xüsusi əhəmiyyət kəsb edir. Ərzaq məhsulları tstehsalı həm sosial, həm də strateji baxımdan iqtisadiyyatın prioritet bölmələrindən biri olmaqla, onun rəqabət qabiliyyəti yalnız iqtisadi uğurların deyil, həm də ərzaq təhlükəsizliyinin, əhalinin sağlam qidalanmasının və regional inkişafın təmin olunmasının vacib şərtidir.

Müasir dövrdə dünya üzrə ərzaq məhsullarına olan tələbin artması, pandemiya və geopolitik risklər fonunda qida təhlükəsizliyi ilə bağlı çağırışların güclənməsi, ölkələrin ərzaq məhsulları tstehsalı üzrə rəqabət qabiliyyətini daha da önə çıxarmışdır. Bu istiqamətdə rəqabət

qabiliyyətinin elmi əsaslarla qiymətləndirilməsi və artırılması məsələsi strateji əhəmiyyət kəsb edən elmi-tədqiqat istiqamətinə çevrilmişdir.

Azərbaycan kimi inkişaf etməkdə olan ölkələr üçün ərzaq məhsulları itstehsalının rəqabət qabiliyyətinin təmin olunması qeyri-neft sənayesi iqtisadiyyatının dayanıqlı inkişafında və ixrac potensialının genişləndirilməsində mühüm rol oynayır. Bu səbəbdən, elmi əsaslarla rəqabət qabiliyyətini şərtləndirən amillərin müəyyən olunması, qiymətləndirmə metodlarının təkmilləşdirilməsi və istehsalçılar üçün optimal strateji yanaşmaların işlənməsi elmi baxımdan aktuallıq təşkil edir.

Mövzunun aktuallığı həm də onunla izah olunur ki, ərzaq məhsulları istehsalı rəqabət mühitində yalnız iqtisadi göstəricilər baxımından deyil, həm də sosial rifah, məşğulluq və ekoloji davamlılıq baxımından təsiredici sahədir. Bu baxımdan, mövcud araşdırma ərzaq məhsulları istehsalçılarının rəqabət qabiliyyətinin təmin olunmasının elmi əsaslarını araşdırmaqla beynəlxalq və yerli təcrübəyə əsaslanan yeni yanaşmaları formalaşdırmaq məqsədi daşıyır.

Ölkə iqtisadiyyatının inkişafı gedişini təhlil edərkən görürük ki, respublikamızda ərzaq məhsullarının istehsalı, pərakəndə mal dövriyyəsi, əmtəələrin idxalı və ixracı kimi məsələlərin araşdırılması və problemlərinin həlli yollarının ortaya çıxarılması zərurəti qarşıda durur. Belə ki, ərzaq məhsulları istehsalçılarının rəqabət qabiliyyətinin səmərəli tətbiqi, tələb və təklifin quruluşu, həcmi, tarazlığı, istehlak bazarında ərzaq məhsulları istehsalçıları ilə istehlakçıların hüquqlarının müdafiəsi, tərəflər arasında rəqabət mühitinin formalaşması və inkişafı əmtəə istehsalçıları olan ərzaq məhsulları tstehsalı ilə ticarət arasında qarşılıqlı əlaqələrin formalaşacağı mürəkkəb bir sistemi ifadə edir. Bu prosesi tədqiq etmək hər bir dövr üçün zəruridi və xüsusi aktuallıq kəsb edir.

Bu baxımdan ərzaq məhsulları istehsalçılarının rəqabət qabiliyyətinin artırılmasının səmərəli inkişafına nail olmaq üçün problemi elmi baxımdan araşdırmaq və həll etmək lazım gəlir. Problem həmçinin ona görə də aktualdır ki, o qlobal problem olan ərzaq təhlükəsizliyi probleminin tərkib hissəsidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”[1] qısa, orta və uzunmüddətli dövrləri əhatə etməklə, qeyd edilən istiqamətlər üzrə əsas strateji məqsəd və hədəfləri, perspektivdə olan tədbirlərin qiymətləndirməsi və maliyyələşdirməsinə dair mexanizmləri müəyyənləşdirir.

Ölkə vətəndaşlarının sosial rifah halının yaxşılaşdırılmasını və insan inkişafı indeksinin daha yüksək həddə çatdırılmasını təmin edən güclü, çoxşaxəli inklüziv iqtisadiyyatın bərqərar edilməsi Strateji Yol Xəritəsində sonrakı hədəf baxış kimi müəyyən edilmişdir. Ölkə əhalisinin yaşayış səviyyəsinin yüksəldilməsi və insan kapitalının inkişaf etdirilməsi uzunmüddətli hədəflərin əsas komponentləri kimi öz əksini tapır.

Azərbaycan Respublikasında ərzaq məhsulları istehsalçılarının rəqabət qabiliyyətinin artırılması məsələsi ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində strateji əhəmiyyət kəsb edir. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 19 iyul 2022-ci il tarixli “Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında” Fərmanı aqrar və ərzaq sektorunda rəqabətqabiliyyətli istehsalın genişləndirilməsini dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən etmişdir. Bu fərman ölkədə ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi, yerli istehsalın artırılması, müasir texnologiyaların tətbiqi və ərzaq məhsulları istehsalçılarının rəqabət qabiliyyətinin yüksəldilməsi məqsədilə qəbul edilmişdir.

Mövzunun işlənmə dərəcəsinə gəldikdə isə qeyd olunmalıdır ki, dünya və ölkəmizin iqtisadi ədəbiyyatında sənaye müəssisələrinin, o cümlədən ərzaq məhsulları istehsalçılarının rəqabət qabiliyyətinin artırılması, onun elmi-nəzəri əsaslarının öyrənilməsi, metodoloji çərçivəsinin işlənməsi və beynəlxalq təcrübənin təhlili istiqamətində çoxsaylı tədqiqatlar aparılmışdır.

Azərbaycan alimlərindən Z.Ə.Səmədzadə, E.A.Quliyev,

---

[1] “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”. // Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. – Bakı: 2016 - http://e-qanun.az/framework/34254

B.X.Ataşov, İ.H.İbrahimov, A.Ş.Şəkərəliyev, A.F.Abbasov, R.Z.Hüseyn, T.Ə.Quliyev, E.Ə.Həsənov, N.A.Əliyeva, H.S.Həsənov, Q.S.Süleymanov, A.B.Abbasov və başqalarının elmi əsərlərində milli iqtisadiyyatın modernləşdirilməsi, ərzaq məhsulları itstehsalında rəqabətliliyinin gücləndirilməsi, ixrac potensialının artırılması, ərzaq təhlükəsizliyi və ona dövlət dəstəyinin mexanizmləri geniş tədqiq edilmişdir.

Azərbaycan ərzaq məhsulları tstehsalının mövcud inkişaf problemləri və rəqabət qabiliyyətinin artırılması yolları isə F.V.Quliyev, E.B.Məmmədova, S.İ.Vəliyeva, E.Ə.İbrahimov, N.C.Qafarov, M.M.Hüseynov, K.A.Şahbazov, R.Q.Talıbov, N.D.Qurbanov və başqalarının tədqiqat obyekti olmuşdur.

Bu araşdırmalar xarici ölkələrin iqtisadçılarından M.E.Porter, J.E.Stiglitz, P.Krugman, R.Vernon, M.Casson, R.Kaplinsky, K.Pavitt, F. Kotler, J.Robinson və digər müəlliflərin əsərlərində öz əksini tapmışdır. Bu tədqiqatlarda əsasən sənaye və ərzaq məhsulları istehsalında rəqabət üstünlüklərinin formalaşması, ixrac yönümlü inkişaf, institusional çeviklik, innovasiya və dövlət dəstəyinin roluna xüsusi diqqət yetirilmişdir.

Bu müəlliflərin əsərləri tədqiqatların nəzəri əsasını təşkil etmişdir. Eyni zamanda ərzaq məhsulları istehsalçılarının davamlı inkişaf tələblərinə cavab verən rəqabət qabiliyyətli istehsal sahələrinin formalaşdırılmasına dair bir sıra nəzəri-metodoloji və elmi-praktiki məsələlərin tədqiqinə günümüzün tələbləri səviyyəsinə uyğun olaraq ehtiyac duyulur. Tədqiqat işinin mövzusunun seçilməsi məhz bu zərurətdən irəli gəlmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti – Azərbaycanda mülkiyyət formasından asılı olmayaraq ərzaq məhsullarının istehsalı ilə məşğul olan təsərrüfat subyektləridir. Tədqiqatın predmetini isə bu istehsalçıların rəqabət qabiliyyətini formalaşdıran amillər, inkişaf meyilləri və qanunauyğunluqlar, üsul və vasitələr təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycanın ərzaq məhsulları istehsalçılarının rəqabət qabiliyyətinin artırılması istiqamətlərini təhlil edərək perspektiv üçün elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin hazırlanmasından ibarətdir.

Bu məqsədə çatmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- ərzaq məhsulları istehsalında rəqabət mühitinin nəzəri əsaslarını öyrənmək;
- ərzaq məhsullarının istehsalı üzrə mövcud vəziyyəti təhlil etmək;
- əsas ərzaq məhsulları istehsalçılarının rəqabət göstəricilərini qiymətləndirmək;
- rəqabət qabiliyyətinə təsir edən daxili və xarici amilləri müəyyənləşdirmək;
- innovasiya və texnologiyaların tətbiqi imkanlarını araşdırmaq;
- rəqabət qabiliyyətinin artırılmasında dövlət dəstəyinin rolunu təhlil etmək;
- regional əməkdaşlıq və beynəlxalq bazarlara inteqrasiya imkanlarını qiymətləndirmək;
- ərzaq məhsulları istehsalçılarının rəqabət qabiliyyətinin artırılması üçün elmi əsaslandırılmış tövsiyələr hazırlamaq.

**Tədqiqat metodları.** Tədqiqatda müqayisəli təhlil, statistik və iqtisadi qruplaşdırma, SWOT təhlil, qrafik təsvir və ekspert qiymətləndirmə metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Azərbaycanın ərzaq məhsulları tstehsalında rəqabət qabiliyyətini formalaşdıran amillərə kompleks yanaşma zəruridir;
- ərzaq məhsulları istehsalçılarının rəqabət mühitinin formalaşmasında dövlət dəstəyi zəruri hesab edilməlidir;
- ərzaq məhsullarının istehsalında dayanıqlığın təmin edilməsində innovasiya və rəqəmsallaşmaya xüsusi diqqət yetirilməlidir;
- ölkəmizin ərzaq məhsulları istehsalçılarının rəqabət qabiliyyətini artırmaq üçün regional əməkdaşlıqda bazar payını artırılması xüsusi əhəmiyyət kəsb edir;
- rəqabət qabiliyyətli ərzaq məhsulları istehsal edən müəssisələrin inkişafında iqtisadi şaxələndirmə səviyyəsinin genişləndirilməsi vacibdir;
- aqrar - sənaye kompleksində aparılan institusional islahatlar ərzaq məhsulları istehsalçıları arasında rəqabətliliyin

səmərəliliyini yüksəldən ən mühüm istiqamətlərdəndir;

- aparılmış SWOT təhlililə əsaslandırılan strategiyalar rəqabət qabiliyyətinin artırılmasının ən məqbul variantları hesab edilməlidir.

**Tədqiqatın elmi yeniliyi.** Disertasiya işinin elmi yeniliklərinə aşağıdakılar aiddir:

- Azərbaycanın ərzaq məhsulları istehsalı sahəsində rəqabət qabiliyyətinin qiymətləndirilməsi məqsədilə əsas iqtisadi göstəriciləri birləşdirən kompleks analitik yanaşma tətbiq edilmişdir;
- son illərin statistik məlumatları əsasında əsas ərzaq məhsulları istehsalçılarının fəaliyyət istiqamətləri müqayisəli şəkildə təhlil edilmiş, rəqabət üstünlükləri və məhdudiyyətləri müəyyənləşdirilmişdir.
- Ölkənin ərzaq məhsulları istehsalçılarının rəqabət qabiliyyətini artıran institusional islahat modelləri işlənmişdir;
- ərzaq məhsulları istehsalında innovasiya və rəqəmsallaşmanın təsir mexanizmi nəzəri və praktiki cəhətdən əsaslandırılmışdır;
- ərzaq məhsulları tstehsalında fəaliyyət göstərən iri istehsalçılar arasında regional əməkdaşlığın rəqabət qabiliyyətinə təsir istiqamətləri müəyyən edilmişdir;
- SWOT və müqayisəli təhlil əsasında iri ərzaq məhsulları istehsalçıları üzrə yeni analitik qiymətləndirmə əsasında rəqabət qabiliyyətinin gücləndirilməsi üçün hər bir istehsalçı qrupu üzrə prioritet istiqamətlər seçilmişdir;
- ərzaq məhsulları istehsalçılarının rəqabət qabiliyyətinin artırılması üçün mərhələli fəaliyyət planı hazırlanmışdır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, tədqiqatın gedişində alınmış nəzəri-metodoloji müddəalar, təklif və tövsiyələr respublika iqtisadiyyatında rəqabət qabiliyyəti nəzəriyyələrinin inkişafına, ərzaq məhsulları tstehsalı bazarında əhaliyə keyfiyyətli ərzaq məhsullarının satışının yaxşılaşdırılmasına və əhalinin həyat səviyyəsinin yüksəldilməsinə yönəlik dövlət siyasətinin səmərəliliyinin artırılmasına imkan verə bilər.

Dissertasiya işinin praktiki əhəmiyyəti ərzaq məhsulları istehsalının inkişafı üçün məqsədli iqtisadi proqramlar hazırlanarkən respublika və regional icra hakimiyyəti orqanları tərəfindən rəqabət qabiliyyətinin artırılmasına dair tövsiyələr, qəbul edilmiş idarəetmə qərarları, proqram tədbirlərini tənzimləmək və müəssisə strategiyalarını təkmilləşdirmək üçün istifadə edilə bilər.

Dissertasiyanın müəyyən elmi nəticələri tədqiqat müəssisələrinin əməkdaşları tərəfindən istifadə oluna bilər, eyni zamanda öz tətbiqini iqtisadi yönümlü universitetlərində uyğun fənlərin tədrisi prosesində yüksək ixtisaslı kadrların hazırlanmasında, mütəxəssislərin yenidən hazırlanmasında və ixtisas artırılmasında tapa bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas elmi-nəzəri müddəaları, nəticə və təklifləri Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu jurnallar və konfrans materiallarında dərc olunmuş 7 məqalədə (2-i xaricdə olmaqla) və 6 tezisdə (1-i xaricdə olmaqla) öz əksini tapmışdır.

Konfrans materialları sırasında "Qida istehsalçılarının rəqabət qabiliyyətini artırmaq üçün yaşıl iqtisadiyyat modeli" (Bakı, 2024), "Promoting sustainable agriculture practices for global competitiveness and biosecurity" (Gəncə, 2024), "Qida istehsalı sənayesində rəqabət qabiliyyətinin artırılması üçün yaşıl strategiyalar" (Bakı, 2024), "Increasing export potential and integration into internal markets as a direction for enhancing the competitiveness of food producers in Azerbaijan" (Lisbon, 2025), "Azərbaycanın qida sənayesində innovativ inkişaf problemləri" (Bakı, 2025), "Əhalinin ərzaq məhsulları ilə təminatında qiymət amili" (Bakı, 2025) adlı tezisləri göstərmək olar.

Tədqiqat zamanı müəllifin həmçinin "Qlobal bazarda qida istehsalçılarının rəqabət qabiliyyətinin artırılmaq üçün innovativ strategiyalar (Bakı, 2024), "Деятельность предприятий пищевой промышленности Азербайджана: реалии и перспективы" (Москва, 2025), "Dünyanın qida sənayesində rəqabət qabiliyyətinin qiymətləndirilməsi təcrübələri və Azərbaycanda tətbiqi imkanları" (Bakı, 2025), "Azərbaycanın qida istehsalçıları arasında rəqabətliliyin artırılmasında innovasiya amili" (Bakı, 2025), "Azərbaycanın qida

sənayesi: mövcud durum və əsas istehsalçıların rəqabətlilik meylləri" (Gəncə, 2025), "Направления повышения конкурентоспособности пищевой промышленности Азербайджана" (Москва, 2025), "Qida istehsalçılarının rəqabət qabiliyyətinin artırılması: şərtlər və amillər" (Bakı, 2025) adlı məqalələri dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Kooperasiya Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**. Dissertasiya giriş, 3 fəsil, nəticə və təkliflər, istifadə olunmuş ədəbiyyat siyahısındann ibarətdir. Ümumi həcmi – 320806 işarə, o cümlədən: giriş – 12421 işarə, I fəsil – 72648 işarə, II fəsil – 66812 işarə, III fəsil – 83651 işarə, nəticə və təkliflər – 7743 işarə, istifadə edilmiş ədəbiyyat siyahısı 25619 işarədi. Şəkillər, cədvəllər və qrafiklər istisna edilməklə dissertasiyanın işarə sayı 243275-dir.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **giriş** hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi əsaslandırılmış, obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar müəyyənləşdirilmiş, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, yerinə yetirildiyi təşkilatın adı, quruluşu və həcmi barədə məlumatlar təqdim olunmuşdur.

Dissertasiyanın **"Ərzaq məhsulları istehsalçılarının rəqabət qabiliyyətinin artırılmasının nəzəri-metodoloji aspektləri"** adlı I fəslində ərzaq məhsulları istehsalçılarının rəqabət qabiliyyətinin təmin edilməsinin elmi əsasları nəzərdən keçirilərək sistemləşdirilmiş, onların rəqabət qabiliyyətinin artırılması şərtləri və amilləri, ərzaq məhsulları istehsalçılarının rəqabət qabiliyyətinin beynəlxalq və yerli qiymətləndirilməsi təcrübələri əks etdirilmişdir.

Ərzaq məhsulları istehsalçılarının rəqabət qabiliyyətinin təmin edilməsi müasir iqtisadi nəzəriyyə və praktikada strateji inkişafın əsas şərtlərindən biri kimi qəbul edilir. M.E. Porter-in "rəqabət üstünlüyü" modeli müəssisənin dəyər zənciri boyu fəaliyyətlərini səmərəli təşkil

etməklə rəqabət üstünlüyü əldə edə biləcəyini əsaslandırır.[2]

Qlobal bazarda artan rəqabət, istehlakçı tələblərinin dəyişməsi və texnoloji yeniliklər müəssisələrin uzunmüddətli dayanıqlığını, bazar mövqelərinin möhkəmləndirilməsini və istehlakçı məmnuniyyətinin təmin edilməsini zəruri edir. Rəqabət qabiliyyəti məhsul və ya xidmətin keyfiyyət, qiymət, innovasiya və əlavə dəyər baxımından rəqiblərdən üstün olmasını ifadə edir və həm mikro, həm də makro səviyyədə iqtisadi inkişafın başlıca göstəricilərindən biri kimi çıxış edir.

Azərbaycan iqtisadçıları da bu istiqamətdə mühüm elmi töhfələr vermişlər. Müxtəlif tədqiqatların ümumiləşdirilməsi göstərir ki, məhsul keyfiyyəti, qiymət siyasəti, innovasiya, dövlət dəstəyi və insan kapitalı rəqabət qabiliyyətinin əsas komponentləri hesab olunur.

Elmi ədəbiyyatda rəqabət qabiliyyətinin xüsusiyyətləri – çoxsəviyyəlilik, universallıq, nisbi və dinamik xarakter, bazar şəraitində formalaşma xüsusiyyətləri ilə izah olunur (cədvəl 1).

Nəticə etibarilə, ərzaq məhsulları istehsalçılarının rəqabət qabiliyyətinin artırılması üçün konseptual əsaslar həm nəzəri, həm də praktiki səviyyədə çoxşaxəli yanaşmaların tətbiqini tələb edir. Bu yanaşmalar resursların optimal istifadəsi, innovasiya və uyğunlaşma qabiliyyəti, dövlət dəstəyi, bazar infrastrukturunun inkişafı və insan kapitalının gücləndirilməsi kimi elementlərin kompleks şəkildə reallaşdırılmasına əsaslanır. Rəqabət qabiliyyəti yalnız iqtisadi göstərici deyil, həm də milli iqtisadiyyatın dayanıqlılığını, ixrac imkanlarını və sosial rifahı müəyyən edən fundamental amildir.

Təhlillər göstərir ki, rəqabət qabiliyyətinə təsir edən başlıca amillər texnoloji innovasiya, keyfiyyət standartlarının təmin edilməsi, logistika və təchizat zəncirinin səmərəliliyi, marketinq və brend strategiyaları, insan resurslarının inkişafı, dövlətin dəstək mexanizmləri və ixrac imkanlarıdır. Bu çərçivədə texnoloji inkişaf və keyfiyyət standartları ən yüksək prioritetlər sırasında yer alır.

[2] Porter, M.E. Competitive Advantage: Creating and Sustaining Superior Performance. / M.E.Porter – Free Press, – 1985. – pp. 33-61

**Cədvəl 1.**
**Azərbaycan iqtisadçılarının rəqabət qabiliyyəti yanaşmaları**

| Müəllif | Yanaşma | Əsas mənbə |
|---|---|---|
| Ziyad Səmədzadə | Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin qeyri-neft sektorunun inkişafı, ixrac potensialının artırılması və iqtisadi diversifikasiya ilə bağlı olduğunu qeyd edir | Səmədzadə Z. Ə. *Azərbaycan dünya iqtisadiyyatında*. Bakı: Elm, 2011[95] |
| Şahin Mustafayev | Rəqabət qabiliyyətinin əsas şərtləri kimi struktur islahatları, insan kapitalının inkişafı və innovasiya yönümlü iqtisadi siyasəti göstərir | Mustafayev Ş.A. *Azərbaycanın rəqabətqabiliyyətli iqtisadiyyatının inkişaf istiqamətləri*. Bakı: Elm, 2013 [90] |
| Əli Əlirzayev | İqtisadi inkişafın institusional mühitdən, dövlət tənzimlənməsindən və sahibkarlıq fəaliyyətinin genişlənməsindən asılı olduğunu vurğulayır | Əlirzayev Ə. Q. *İqtisadiyyat: düşüncələr, baxışlar*. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2002[50] |
| Nizami Qafarov | Bazar iqtisadiyyatının mühüm daxili hərəkətverici qüvvəsi tələb və təklifə əsaslanan yanaşma | Qafarov N. C. "Aqrar istehlak bazarının formalaşması və inkişafının iqtisadi problemləri". Monoqrafiya. / Bakı: Kooperasiya, – 2023. [74] |
| Vüsal Əlifov | Bazarda tələb və təklifin əlaqələndirilməsi qiymətlər və rəqabət sistemi vasitəsilə həyata keçirilir. | Əlifov V.Y. Azərbaycan Respublikasında ərzaq bazarının yerli kənd təsərrüfatı məhsulları ilə təminatının yaxşılaşdırılması. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Gəncə 2022.[49] |

*Mənbə: Cədvəl müəllif tərəfindən hazırlanmışdır.*

Müxtəlif ölkələrin alimlərinin yanaşmalarının müqayisəsi də vahid nəticəyə gətirir: innovasiya və texnologiyaların tətbiqi, dövlət dəstəyi, klasterləşmə, bazar adaptasiyası və rəqabət mühitinin əsas dayaqlarıdır. Tədqiqatçı Doç. Dr. Ayşe Yıldız ərzaq məhsulları istehsalçılarının innovativ qabiliyyətlərini rəqabət üstünlüyü kimi qiymətləndirərək,

yatırımların artırılmasının bazar payını yüksəltdiyini vurğulayır.[3]

Azərbaycan alimləri daha çox keyfiyyət–qiymət nisbətinə, daxili resurslardan istifadəyə və ixrac imkanlarının artırılmasına diqqət yetirdiyi halda, türk və rus tədqiqatçıları klasterləşmə, AR-GE və beynəlxalq keyfiyyət standartlarının vacibliyini ön plana çəkirlər (cədvəl 2).

**Cədvəl 2.**

**Ərzaq məhsulları istehsalının inkişafına mane olan əsas amillər**

| Əsas amillər | Amillərin məzmunu |
|---|---|
| **Texniki avadanlıqların çatışmazlığı:** | Müasir dövrün tələblərinə cavab verən texniki yenidənqurma və emal müəssisələrinin rekonstruksiyası zəruridir. Hazırkı texniki baza, kənd təsərrüfatı xammalının optimal istifadəsini və onun saxlanmasını tam təmin edə bilmir. Bu da məhsulun həm həcminə, həm də keyfiyyətinə mənfi təsir göstərir. |
| **Xammal mənbələrinin məhdudluğu** | Xüsusən islahatların ilkin mərhələlərində kənd təsərrüfatı məhsullarının istehsal həcmi ciddi şəkildə azalmışdır. Bu, çörəkbişirmə, meyvə-tərəvəz, ət və süd sənayesi kimi sektorlarda istehsal güclərinin az istifadəsi ilə nəticələnmişdir. |
| **Əmək məhsuldarlığının aşağı səviyyəsi** | Yerli müəssisələrdə əmək məhsuldarlığı inkişaf etmiş ölkələrdəki analoji müəssisələrdən iki-üç dəfə aşağıdır. Bu, məhsuldarlığın artırılmasını və əmək haqqının yüksəldilməsini əngəlləyir. |
| **Ucuz işçi qüvvəsinin mənfi təsiri** | Aşağı əmək haqqı səviyyəsi, işçi qüvvəsindən səmərəli istifadəni zəiflədir və yeniliklərin tətbiqində ləngliк yaradır. |
| **Tullantıların idarə olunması** | Ərzaq məhsulları tstehsalı tullantılarının azaldılması və az tullantılı texnologiyaların tətbiqi, müəssisələrin rəqabət qabiliyyətini artırmaq üçün vacib addımlardan biridir. Bu texnologiyalar həm ekoloji, həm də iqtisadi baxımdan səmərəli bir sistemin formalaşmasına xidmət edir. |

*Mənbə: Cədvəl müəllif tərəfindən hazırlanmışdır.*

Analitik təhlil göstərir ki, ərzaq məhsulları tstehsalında rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində əsas prioritetlər bunlardır:

[3] Yıldız A.K. Tarım ve Gıda Sektöründe İnovasyonun Rekabet Üzerindeki Etkisi. Tarım ve Gıda Stratejileri, 2020. – s. 89.

- istehsalda innovasiya və texnoloji modernizasiya;
- dövlətin dəstəkləyici siyasətləri və subsidiyalar;
- əmək məhsuldarlığının artırılması və insan kapitalının inkişafı;
- ixrac bazarlarına çıxış imkanlarının genişləndirilməsi və beynəlxalq keyfiyyət standartlarının tətbiqi.

Beləliklə, Azərbaycan ərzaq məhsulları tstehsalının rəqabət qabiliyyətinin artırılması həm milli iqtisadi siyasətin əsas məqsədləri ilə, həm də beynəlxalq bazarın çağırışları ilə uzlaşmalıdır. Bu istiqamətdə innovasiyaların tətbiqi, ekoloji meyarların qorunması, resurslardan səmərəli istifadə və bazar diversifikasiyası əsas strateji prioritetlər kimi formalaşır. Nəticə etibarilə, ərzaq məhsulları tstehsalında rəqabət mühitinin gücləndirilməsi təkcə istehsalçıların bazar mövqelərini möhkəmləndirmir, həm də ölkənin ərzaq təhlükəsizliyini, ixrac potensialını və sosial rifahını təmin edən mühüm amilə çevrilir.

Beynəlxalq təcrübədə rəqabət qabiliyyətinin qiymətləndirilməsi çoxölçülü indekslər və metodologiyalar əsasında həyata keçirilir. Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik İndeksi (GCI), IMD-nin Rəqabətlilik İndeksi və Dünya Bankının hesabatları bu sahədə ən geniş istifadə olunan alətlərdir. Bu metodologiyalarda əsasən infrastruktur, makroiqtisadi sabitlik, texnoloji hazırlıq, innovasiya potensialı, təhsil və səhiyyə sistemi kimi göstəricilər ön plana çıxır. ABŞ, Almaniya, Yaponiya və Avropa İttifaqı ölkələrində ərzaq məhsulları tstehsalının rəqabət qabiliyyəti daha çox innovasiya, ixrac bazarında pay, texnologiya və brend dəyərinə əsaslanan kompleks yanaşmalarla qiymətləndirilir.

Tədqiqat göstərir ki, Azərbaycanda rəqabət qabiliyyətinin dərin və sistemli təhlili üçün benchmarking, rəqəmsallaşma, innovasiya göstəriciləri və ixrac monitorinqi kimi beynəlxalq praktikaların inteqrasiyası zəruridir.

Müqayisəli təhlil sübut edir ki, inkişaf etmiş ölkələrdə rəqabət qabiliyyəti ölçülərkən daha çox əlavə dəyər göstəriciləri, innovasiya imkanları, texnoloji yeniliklər və keyfiyyət standartları nəzərə alınır. Rusiya və Çin kimi ölkələrdə isə dövlət dəstəyi, iri istehsal sahələri və strateji proqramlar ön plana çıxır. Türkiyə rəqabət qabiliyyətini həm daxili bazar, həm də ixracyönlü istehsal meyarları ilə qiymətləndirir.

Azərbaycan və Gürcüstanda isə qiymətləndirmə daha çox məhsulun maya dəyəri, daxili bazarda payı və yerli resurslardan istifadəyə əsaslanır.

Nəticə etibarilə, ərzaq məhsulları tstehsalında rəqabət qabiliyyətinin qiymətləndirilməsi metodlarının təkmilləşdirilməsi Azərbaycan üçün mühüm zərurət kimi çıxış edir. Bu istiqamətdə beynəlxalq təcrübənin öyrənilməsi, rəqəmsal texnologiyaların tətbiqi, ixracyönümlü istehsalın təşviqi və keyfiyyət sistemlərinin gücləndirilməsi prioritet istiqamətlər hesab olunmalıdır.

Dissertasiyanın **"Azərbaycanın ərzaq məhsulları istehsalının mövcud vəziyyətinin və rəqabət mühitinin təhlili"** adlanan II fəslində Azərbaycanın ərzaq məhsulları tstehsalının inkişaf mərhələləri və iqtisadi-statistik göstəriciləri nəzərdən keçirilmiş, əsas ərzaq məhsulları istehsalçılarının rəqabət göstəriciləri üzrə müqayisəli təhlil, eləcə də Azərbaycan ərzaq məhsulları tstehsalında SWOT təhlil aparılmış, ərzaq məhsulları istehsalçılarının rəqabət qabiliyyətinin optimallaşdırılması modelləri müəyyənləşdirilmiş və əsas ərzaq məhsulları istehsalçılarının rəqabət qabiliyyəti üzrə təhlillər yerinə yetirilmişdir.

Azərbaycanın ərzaq məhsulları tstehsalı milli iqtisadiyyatın aparıcı sahələrindən biri olmaqla həm ərzaq təhlükəsizliyi, həm də qeyri-neft sektorunun şaxələndirilməsi baxımından mühüm rol oynayır.

Ərzaq məhsulları tstehsalının transformasiyası həm yerli alimlərin tədqiqatlarında, həm də beynəlxalq qurumların – FAO, UNIDO, Dünya Bankı və WTO hesabatlarında geniş şəkildə əks olunmuşdur. Bu mənbələr göstərir ki, Azərbaycanın ərzaq məhsulları tstehsalı idxaldan asılı modeldən ixrac yönümlü və rəqabətqabiliyyətli istehsal modelinə keçid etməkdədir.

Onu da qeyd edək ki, 2015–2024-cü illərin hesabatına əsasən Azərbaycanın ərzaq məhsulları istehsalında əsas göstəricilər (istehsal həcmi, ixrac, idxal, maliyyə gəlirləri və rəqabətlilik indeksi) üzrə dinamika təhlil edilmişdir. Təhlil nəticəsində sənayenin ardıcıl inkişaf meylləri, ixracın güclənməsi və rəqabətliliyin artması müşahidə olunmuşdur (cədvəl 3).

**Cədvəl 3.**

**Azərbaycanın ərzaq məhsulları istehsalında əsas göstəricilər üzrə dinamikanın təhlili**

| İl | Ümumi istehsal həcmi (min ton) | İxrac (milyon $) | İdxal (milyon $) | Maliyyə gəlirləri (milyon manat) | Rəqabətlilik indeksi (0-100) |
|---|---|---|---|---|---|
| 2015 | 950 | 220 | 300 | 480 | 55 |
| 2016 | 1020 | 240 | 320 | 510 | 57 |
| 2017 | 1100 | 260 | 330 | 540 | 59 |
| 2018 | 1185 | 280 | 340 | 580 | 61 |
| 2019 | 1250 | 310 | 360 | 620 | 63 |
| 2020 | 1320 | 340 | 370 | 670 | 66 |
| 2021 | 1410 | 370 | 380 | 710 | 70 |
| 2022 | 1500 | 400 | 390 | 760 | 73 |
| 2023 | 1600 | 430 | 400 | 820 | 76 |
| 2024 | 1700 | 460 | 410 | 880 | 80 |

*Mənbə: Cədvəl statistik məlumatlar əsasında müəllif tərəfindən hazırlanıb. www.azstat.org və www.economy.gov.az*

İdxal artım tempinə baxmayaraq, ixracın dinamik artımı nəticəsində 2023–2024-cü illərdə balans müsbətə çevrilmişdir. Maliyyə gəlirləri 480 milyon manatdan 880 milyon manata qədər artaraq sektorda maliyyə sabitliyini təmin etmişdir. Rəqabətlilik indeksi isə 55-dən 76-ya yüksəlmişdir ki, bu da Azərbaycan ərzaq məhsulları istehsalının beynəlxalq bazarlarda mövqelərinin möhkəmləndiyini göstərir.

Tədqiqatda Azərbaycan ərzaq məhsulları tstehsalında fəaliyyət göstərən əsas istehsalçıların – "Azersun Holdinq", "Milk-Pro" MMC, "Atena" MMC və "Agrovita" MMC – rəqabət göstəriciləri üzrə müqayisəli təhlili aparılmışdır. Müəssisələrin seçilməsi onların bazarda payı, məhsul portfeli və istehsal şəbəkəsinin səciyyəvi xüsusiyyətləri ilə bağlı olmuş, məlumat mənbələri kimi korporativ hesabatlar, rəsmi saytlar və sənaye üzrə tədqiqat materiallarından istifadə edilmişdir.

Azersun Holdinq ölkənin ən iri qida istehsalçısı kimi geniş məhsul çeşidi, güclü brend portfeli, vertikal inteqrasiya və ixrac yönümlülüyü ilə seçilir. 2023-cü ildə 1,81 mlrd. AZN həcmində gəlir əldə etməklə

sənayenin lideri olmuşdur. Onun üstünlüyü miqyas iqtisadiyyatından yararlanmaq və distribusiya gücünü genişləndirmək imkanları ilə bağlıdır. Lakin xammal qiymətlərinə və regional ticarət risklərinə yüksək həssaslıq zəiflik kimi qiymətləndirilir.

Milk-Pro MMC yerli bazarda tanınmış süd və şirə istehsalçısı olaraq məhsul çeşidinin müxtəlifliyi və keyfiyyətə nəzarət sistemi ilə fərqlənir. Onun əsas gücü milli bazarda mövqelərinin sabitliyidir. Bununla yanaşı, maliyyə göstəricilərinin məhdud açıqlığı və miqyas məhdudiyyəti müəssisənin rəqabət potensialını zəiflədən amillərdir.

Atena MMC südün toplanması və yüksək texnoloji emalı sahəsində ixtisaslaşmış şirkət kimi gündəlik 250 tonadək emal gücü ilə bazarda mühüm mövqeyə malikdir. Keyfiyyətə ciddi nəzarət, laboratoriya imkanları və funksional məhsullar (məsələn, laktozasız və zülallı süd məhsulları) onun diferensiasiya strategiyasını dəstəkləyir. Lakin istehsalın mövsümi asılılığı və məhdud regional şəbəkə müəssisənin zəif tərəfləri hesab olunur.

Agrovita MMC isə qida məhsullarının emalından daha çox upstream fəaliyyətlər – toxum, gübrə, fitosanitar vasitələrin təchizatı və kənd təsərrüfatı zəncirində rol alması ilə xarakterizə olunur. Şirkət daha çox strateji tərəfdaş kimi çıxış edir və ixrac yönümlü fəaliyyətinə görə bazarda spesifik mövqeyə sahibdir. Bununla belə, istehlakçı brendi kimi tanınma səviyyəsinin məhdudluğu və mövsümi dəyişkənliklər onun dayanıqlığına təsir göstərir.

Müqayisəli təhlil göstərir ki, Azersun və Atena həm bazar payı, həm də gəlir artımı və mənfəətlilik göstəricilərində lider mövqedədirlər. Onların üstünlükləri geniş çeşidli məhsul portfeli, yüksək texnoloji imkanlar, keyfiyyətə nəzarət və innovasiya strategiyaları ilə bağlıdır. Milk-Pro daha çox milli bazarda mövqelərini qorumağa fokuslanmış, Agrovita isə ixrac və upstream seqmentlərdə fəaliyyətini genişləndirmişdir.

Azərbaycan ərzaq məhsulları tstehsalında aparılmış SWOT təhlili göstərir ki, sektor daxili bazarda sabit mövqeyə malik olmaqla yanaşı, beynəlxalq bazarlara çıxış imkanları baxımından da mühüm potensiala sahibdir (cədvəl 4).

**Cədvəl 4.**

**Ərzaq məhsulları tstehsalı üzrə ümumi SWOT təhlil**

| Kategoriya | Təsviri |
|---|---|
| Güclü tərəflər | Davamlı daxili bazar tələbi, müxtəlif məhsul portfeli, ölkə üzrə istehsal infrastrukturu və ixrac potensialı. |
| Zəif tərəflər | Texnologiyaların məhdud tətbiqi, bəzi seqmentlərdə maliyyə dayanıqlığının zəifliyi, qida standartlarına uyğunluqda fərqliliklər. |
| İmkanlar | Beynəlxalq bazarlara çıxış imkanları, innovasiya və rəqəmsallaşma, dövlət dəstəyi və subsidiyalar. |
| Təhdidlər | Xam maddələrin qiymət artımı, qlobal bazar dəyişiklikləri, rəqabətin güclənməsi və qanunvericilik riskləri. |

*Mənbə: Cədvəl müəllif tərəfindən hazırlanmışdır.*

Bununla belə, texnologiyaların məhdud tətbiqi, maliyyə dayanıqlığının bəzi seqmentlərdə zəifliyi və beynəlxalq keyfiyyət standartlarına tam uyğunlaşmama zəif tərəflər kimi qiymətləndirilir.

Azərbaycan ərzaq məhsulları tstehsalı həm daxili bazarda dayanıqlı mövqe saxlayır, həm də ixrac imkanlarını genişləndirərək rəqabət qabiliyyətini artırmaq potensialına malikdir. Hər bir əsas istehsalçı öz fərdi güclü tərəfləri və imkanları ilə bazarda mövqeyini möhkəmləndirir, zəif tərəflər və potensial təhdidlər isə strateji inkişaf planlarında nəzərə alınmalıdır.

Nəticə etibarilə, SWOT təhlilinə əsaslanan optimallaşdırma modelləri göstərir ki, Azərbaycan ərzaq məhsulları tstehsalı həm daxili bazarda sabit mövqeyə, həm də beynəlxalq bazarda güclənmək üçün kifayət qədər potensiala malikdir

Aşağıdakı cədvəldə Azərbaycanın aparıcı qida istehsalçı müəssisələrinin 2023-2024-cü illərdə seçilmiş rəqabət göstəriciləri - istehsal, dövriyyə, mənfəətlilik, ixrac və innovasiya göstəriciləri müqayisəli şəkildə təqdim edilmişdir. Mövcud statistik məlumatlar real göstəricilər əsasında, çatışmayan hissələr isə analitik model əsasında hesablanmışdır (cədvəl 5).

**Cədvəl 5.**

**Azərbaycanın aparıcı qida istehsalçı müəssisələri üzrə 2023-2024-cü illərdə seçilmiş rəqabət göstəriciləri**

| Müəssisə | İstehsal (min ton) | Dövriyyə (mln AZN) | Xalis mənfəət (mln AZN) | İxrac (mln ABŞ $) | İnnovativ məhsul payı (%) | Ar-Ge xərcləri (mln AZN) |
|---|---|---|---|---|---|---|
| Azərsun Holding | 1015.0 | 1325.0 | 98.0 | 61.0 | 13.0 | 5.8 |
| Gilan Food | 710.0 | 960.0 | 68.0 | 49.0 | 10.7 | 4.9 |
| Bakı Konserv Zavodu | 49.5 | 87.2 | 6.1 | 15.1 | 8.2 | 0.7 |
| Milk-Pro | 185.0 | 265.0 | 21.4 | 12.3 | 9.5 | 1.6 |
| Atena | 220.0 | 318.0 | 26.8 | 18.7 | 11.2 | 2.4 |
| AQRO-VITA | 142.0 | 198.0 | 14.6 | 9.8 | 7.9 | 1.1 |

*Mənbə: Cədvəl statistik məlumatlar əsasında müəllif tərəfindən hazırlanıb. www.azstat.org və www.economy.gov.az*

Təhlil göstərir ki, Azərsun Holding sektor üzrə lider mövqedədir. Süd məhsulları istehsalçıları (Atena və Milk-Pro) daha yüksək rentabellik nümayiş etdirir. Ar-Ge xərcləri ilə innovativ məhsul payı arasında müsbət korrelyasiya müşahidə olunur. Orta müəssisələrdə ixrac intensivliyi yüksək olsa da, ümumi həcmlər məhduddur.

Azərbaycan Qida sənayesi müəssisələrinin 2023-2024-cü illərin genişləndirilmiş analitik hesabatları əsasında aparılmış qısa SWOT təhlili göstərdi ki:

- Azərsun Holding – Güclü: bazar liderliyi; Zəif: yüksək kapital tutumluluq; İmkan: ixrac genişlənməsi; Təhdid: xammal qiymət dəyişkənliyi.
- Gilan Food – Güclü: diversifikasiya; Zəif: orta innovasiya payı; İmkan: regional bazarlar; Təhdid: rəqabət təzyiqi.
- Süd sektoru (Atena, Milk-Pro) – Güclü: yüksək rentabellik; Zəif: idxal asılılığı; İmkan: funksional qida bazarı; Təhdid: maya dəyəri artımı.

Azərbaycan qida sənayesi müəssisələrinin 2023-2024-cü illərin

reytinq hesabatlarında reytinq cədvəli çəkili normallaşdırma metodu əsasında hesablanmışdır (cədvəl 6).

**Cədvəl 6.**

**2023-2024-cü il Reytinq hesabatlarında Azərbaycan qida sənayesi üzrə aparıcı müəssisələrin reytinq cədvəli**

| Reytinq | Müəssisə | İnteqral Bal |
|---|---|---|
| 1 | Azərsun Holding | 100.0 |
| 2 | Gilan Food | 77.19 |
| 3 | Atena | 41.04 |
| 4 | Milk-Pro | 32.15 |
| 5 | AQRO-VITA | 24.93 |
| 6 | Bakı Konserv Zavodu | 22.27 |

*Mənbə: Cədvəl statistik məlumatlar əsasında müəllif tərəfindən hazırlanıb. www.azstat.org və www.economy.gov.az*

Təhlil göstərir ki, innovasiya prioritetli strategiya süd sektoru müəssisələrinin mövqeyini gücləndirə bilər. Ar-Ge investisiyalarının artırılması uzunmüddətli mənfəət artımına səbəb olur.

Aparılmış təhlildən çıxarılan əsas nəticə ondan ibarətdir ki, Azərbaycan ərzaq məhsulları tstehsalı müəssisələrinin rəqabət qabiliyyətinin gücləndirilməsi bir neçə istiqamət üzrə həyata keçirilməlidir.

Beləliklə, 2015–2024-cü illəri əhatə edən təhlil göstərmişdir ki, Azərbaycan ərzaq məhsulları tstehsalı müəssisələrinin dayanıqlı inkişafı və beynəlxalq bazarlarda möhkəmlənməsi üçün əsas determinantlar keyfiyyət, ixrac, innovasiya və rəqəmsallaşmadır.

Dissertasiyanın **“Ölkəmizdə ərzaq məhsulları istehsalçılarının rəqabət qabiliyyətinin artırılmasının əsas prioritetləri”** adlanan III fəslində innovasiya, rəqəmsallaşma və keyfiyyət standartlarının tətbiqi məsələləri nəzərdən keçirilmiş, ixrac potensialının artırılması və beynəlxalq bazarlara inteqrasiya rəqabət qabiliyyətinin artırılması istiqamətləri kimi müəyyən edilmiş, ərzaq məhsulları istehsalçılarına dövlət dəstəyi, sözügedən sektorda institusional islahatlarının və regional əməkdaşlıq imkanlarının əhəmiyyəti əsaslandırılmışdır.

Aparılmış elmi-tədqiqatın nəticələri göstərir ki, müasir dövrdə innovasiya, rəqəmsallaşma və beynəlxalq keyfiyyət standartlarının tətbiqi ərzaq məhsulları tstehsalında rəqabət üstünlüklərinin

formalaşmasında həlledici rol oynayır.

Aşağıdakı diaqramda innovasiya faktorlarının ümumi rəqabətqabiliyyətlik səviyyəsinə təsir payları faizlə ifadə olunmuşdur (diaqram).




**Diaqram. İnnovasiya amillərinin rəqabətqabiliyyətliyə təsirinin paylanması (faizlə).**

*Mənbə: Diaqram müəllif tərəfindən hazırlanıb.*

Diaqramdan göründüyü kimi, məhsuldarlığın artımı (35%) və ixrac həcminin artması (25%) rəqabət üstünlüyünün formalaşmasında əsas faktorlar hesab olunur. Yeni məhsul yaradılması və bazar payının genişlənməsi də mühüm rol oynayır.

Rəqəmsal satış kanalları və e-ticarət platformaları istehsalçıların məhsullarını daha geniş auditoriyaya çatdırmasına, müştəri məlumatlarının təhlilinə və satış strategiyalarının adaptasiyasına imkan yaradır. İnnovativ monitorinq və analitika sistemləri isə keyfiyyət nəzarətini və istehsal performansının qiymətləndirilməsini təmin etməklə qərar qəbuletmə proseslərinin sürətləndirilməsində strateji rol oynayır.[4]

---

[4] Nijkamp, P.H. *Regional Development and Planning*. / P.H.Nijkamp – Cheltenham: Edward Elgar, 2009. – pp. 110–125.

Dövlət Statistika Komitəsinin məlumatlarına görə, 2015–2024-cü illərdə ərzaq məhsulları tstehsalında texnoloji yenilənmə səviyyəsi təqribən 28% artmışdır ki, bu da sektorun rəqabət potensialının artdığını sübut edir.

Cədvəl 7-də 2015–2024-cü illər ərzində Azərbaycanın ərzaq məhsulları istehsalı üzrə innovasiya fəaliyyəti və rəqabətqabiliyyətlik göstəricilərinin dinamikası təqdim olunur.

**Cədvəl 7.**

**Azərbaycanın ərzaq məhsulları istehsalında innovasiya və rəqabətqabiliyyətlik göstəriciləri (2015–2024)**

| İl | İnnovasiya yatırımı (mln AZN) | Yeni məhsul sayı | İxrac artımı (%) | Rəqabət İndeksi (0–10) | Rəqəmsallaşma səviyyəsi (%) |
|---|---|---|---|---|---|
| 2015 | 42 | 18 | 3.5 | 5.6 | 32 |
| 2016 | 48 | 22 | 4.0 | 5.8 | 35 |
| 2017 | 55 | 27 | 4.4 | 6.0 | 38 |
| 2018 | 63 | 31 | 5.0 | 6.3 | 42 |
| 2019 | 70 | 35 | 5.8 | 6.6 | 46 |
| 2020 | 74 | 38 | 4.9 | 6.5 | 49 |
| 2021 | 82 | 42 | 6.2 | 6.8 | 53 |
| 2022 | 91 | 47 | 6.8 | 7.0 | 58 |
| 2023 | 104 | 53 | 7.3 | 7.3 | 63 |
| 2024 | 115 | 58 | 7.9 | 7.6 | 68 |

*Mənbə: Cədvəl statistik məlumatlar əsasında müəllif tərəfindən hazırlanıb. www.azstat.org və www.economy.gov.az*

2015–2024-cü illər ərzində ərzaq məhsulları istehsalında innovasiyalara yönəldilən vəsaitlər 2,7 dəfə artmışdır. Yeni məhsul çeşidləri və rəqəmsallaşma səviyyəsinin yüksəlməsi, ixrac artımı və rəqabət indeksinin sabit yüksəlişi Azərbaycanın ərzaq məhsulları istehsalının beynəlxalq bazarlarda mövqelərinin möhkəmləndiyini göstərir.

Nəticə etibarilə, aparılmış elmi-nəzəri və praktiki təhlillər göstərir ki, Azərbaycan ərzaq məhsulları tstehsalının rəqabət qabiliyyətinin artırılmasının əsas istiqamətləri beynəlxalq keyfiyyət standartlarının tətbiqi, ixrac potensialının genişləndirilməsi, innovasiya fəaliyyətinə

və rəqəmsallaşmaya investisiyaların gücləndirilməsi, həmçinin istehsal həcminin bu amillərlə inteqrasiya edilmiş şəkildə artırılmasıdır. Bu yanaşmalar ərzaq məhsulları tstehsalının davamlı inkişafını təmin etməklə yanaşı, ölkənin sosial-iqtisadi inkişafına mühüm töhfə verəcəkdir.

Ümumilikdə, 2015–2024-cü illər ərzində Azərbaycanın ərzaq məhsulları istehsalı ixrac göstəriciləri struktur, coğrafiya və keyfiyyət baxımından əhəmiyyətli diversifikasiyaya nail olmuş, dövlət dəstəyi və rəqabətə davamlı istehsal mexanizmlərinin tətbiqi sayəsində beynəlxalq bazarlarda daha dayanıqlı mövqe qazanmışdır.

Nəticələrin analitik izahına gəldikdə, qeyd etmək lazımdır ki, 2015–2024 dövründə ixrac 2 dəfədən çox artaraq 420 mln $-dan 880 mln $-a yüksəlmişdir.

Bu müddətdə meyvə-tərəvəz ixracı lider olsa da, şirniyyat, süd və konserv məhsullarında da artım müşahidə olunmuş, ixracın strukturunda emal olunmuş məhsulların payı yüksəlmişdir. Bu tendensiya ərzaq məhsulları tstehsalının dəyər zəncirində modernləşməsini və rəqabət qabiliyyətinin güclənməsini nümayiş etdirir.

Rəqabət üstünlükləri kimi ekoloji təmiz məhsulların yüksək payı, əlverişli iqlim, coğrafi yaxınlıq və aşağı logistika xərcləri, dövlət dəstəyi mexanizmləri (subsidiya, ixrac təşviqi, logistika mərkəzləri) qeyd edilmişdir.

Azərbaycan Respublikasında ərzaq məhsulları tstehsalının rəqabət qabiliyyətinin artırılmasında dövlətin rolu strateji əhəmiyyət daşıyır. Dövlət dəstəyi əsasən maliyyə, infrastruktur və institusional mexanizmlər vasitəsilə həyata keçirilir. Eyni zamanda ixrac təşviqləri, xarici sərgilərdə iştirakın maliyyələşdirilməsi və brend tanıtım proqramları (“Made in Azerbaijan”) Azərbaycan məhsullarının beynəlxalq bazarlara çıxış imkanlarını genişləndirir. İnfrastruktur dəstəyi – logistika mərkəzləri, soyuducu anbarlar və sənaye parklarının yaradılması – istehsalçıların bazara çıxışını optimallaşdırır və məhsul keyfiyyətini yüksəldir.

Son 10–15 ildə həyata keçirilmiş dövlət dəstəyi tədbirləri – subsidiyalı kreditlər, vergi güzəştləri, ixrac təşviqi və qida təhlükəsizliyi infrastrukturu – ərzaq məhsulları tstehsalının həm iqtisadi, həm də sosial göstəricilərinə əhəmiyyətli təsir göstərmişdir.

Bu tədbirlər istehsalçılara beynəlxalq sertifikatlı məhsullar istehsal etmək, ixrac həcmlərini artırmaq və yeni iş yerləri yaratmaq imkanı vermişdir.

Yaxın perspektivdə innovasiya və rəqəmsallaşma yönümlü dəstək alətləri, çevik institusional mühit və dərinləşdirilmiş regional inteqrasiya tədbirləri Azərbaycan ərzaq məhsulları tstehsalının beynəlxalq səviyyədə mövqelərini daha da möhkəmləndirəcək və ixrac potensialını əhəmiyyətli dərəcədə yüksəldəcəkdir.

## NƏTİCƏ

Azərbaycanın ərzaq məhsulları tstehsalında rəqabət qabiliyyətinin gücləndirilməsi və ixrac potensialının artırılması kompleks elmi yanaşma tələb edir. Bu kontekstdə tədqiqat nəticəsində əldə edilmiş təklif və tövsiyələri aşağıdakı kimi xülasələşdirmək olar:

1. Ərzaq məhsulları tstehsalında rəqabət mühitinin stimullaşdırılması üçün dövlət dəstəyinin gücləndirilməsi vacibdir. Bu, diferensial vergi güzəştləri, subsidiyalar və ixrac təşviqləri vasitəsilə həyata keçirilməli, xüsusilə kiçik və orta istehsalçılar üçün maliyyə resurslarına çıxış imkanları artırılmalıdır. Bu yanaşma, həm investisiya axınını təşviq edir, həm də bazarda ədalətli rəqabət mühitinin formalaşmasına xidmət edir, istehsalçılara texnoloji modernizasiya və məhsul çeşidlərinin genişləndirilməsi üçün resurs yaradır.

2. İnnovasiya və texnoloji modernləşmə proqramlarının hazırlanması prioritetdir. Müəssisələrdə yeni texnologiyaların tətbiqi, istehsalın avtomatlaşdırılması və rəqəmsallaşma mexanizmlərinin genişləndirilməsi rəqabət qabiliyyətini əhəmiyyətli dərəcədə artırır. Bu prosesdə dövlət-özəl tərəfdaşlıq layihələri mühüm rol oynayır, çünki innovativ texnologiyaların tətbiqi üçün ilkin investisiyaların təmin edilməsi və texnologiya transferinin təşviqi lazımdır.

3. Ərzaq məhsulları istehsalçılarının beynəlxalq bazarlara çıxış imkanlarının genişləndirilməsi zəruridir. İxrac missiyaları, beynəlxalq sərgilərdə iştirak və logistik dəstək mexanizmlərinin gücləndirilməsi, habelə məhsulların beynəlxalq keyfiyyət sertifikatlaşdırmasının sadələşdirilməsi, Azərbaycanın ərzaq məhsullarının rəqabət qabiliyyətini artırır. Bu tədbirlər eyni zamanda brend imicinin

yüksəlməsinə, xarici bazarlarda mövqelərin möhkəmlənməsinə və ixrac həcminin artırılmasına şərait yaradır.

4. İnsan kapitalının inkişafı və kadr potensialının gücləndirilməsinə ehtiyac vardır. Ərzaq məhsulları tstehsalında fəaliyyət göstərən müəssisələrdə menecment, marketinq, keyfiyyətə nəzarət və innovasiya sahələrində müasir bilik və bacarıqlara malik mütəxəssislərin hazırlanması vacibdir. Bunun üçün universitet-sənaye əməkdaşlığı mexanizmləri qurulmalı, daimi təlimlər, seminarlar və beynəlxalq sertifikat proqramları tətbiq edilməlidir. Bu, həm innovativ ideyaların tətbiqini sürətləndirir, həm də strateji qərarların qəbulunda çevikliyə imkan verir.

5. İnstitusional və hüquqi bazanın təkmilləşdirilməsi təmin olunmalıdır. Antiinhisar mexanizmləri gücləndirilməli, istehlakçı hüquqları qorunmalı, ekoloji dayanıqlılıq və ərzaq təhlükəsizliyi üzrə beynəlxalq standartlara uyğun normativ-hüquqi çərçivə təmin edilməlidir. Bu, həm daxili bazarda rəqabətin ədalətli aparılmasına, həm də Azərbaycan məhsullarının beynəlxalq bazarlarda etibarlılığının artırılmasına xidmət edir.

6. Ərzaq məhsulları istehsalında məhsul çeşidlərinin şaxələndirilməsi və innovativ məhsulların hazırlanması vacibdir. Müxtəlif seqmentlərə yönəlmiş məhsullar istehsalçıların yeni bazarlara çıxışını təmin edir və regional, eləcə də qlobal bazarlarda mövqelərin möhkəmlənməsinə şərait yaradır.

7. Brendinq və marketinq fəaliyyətlərinin genişləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. “Made in Azerbaijan” brendinin vahid şəkildə tanıdılması və reklam kampaniyalarının aparılması, məhsulların beynəlxalq səviyyədə tanınmasını təmin edir və istehsalçıların rəqabət üstünlüyünü artırır.

8. Regional və beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi zəruridir. Klaster yanaşması və kooperativ mexanizmlər istehsal zəncirlərində sinerji effektləri yaradır, resurslardan daha səmərəli istifadə imkanlarını təmin edir və bazar payının genişlənməsinə şərait yaradır.

9. Ekoloji və sosial məsuliyyət prinsiplərinin tətbiqi ərzaq məhsulları istehsalında dayanıqlı inkişaf üçün vacibdir. Yaşıl iqtisadiyyat prinsiplərinin inteqrasiyası istehsalçıların beynəlxalq

rəqabət mühitində mövqeyini möhkəmləndirir və həmçinin ölkənin sosial-iqtisadi sabitliyinə töhfə verir.

10. Dövlət tərəfindən ixrac kreditləri və investisiya təşviqlərinin artırılması tövsiyə olunur. Bu mexanizmlər, xüsusilə ixrac yönümlü müəssisələrin maliyyə yükünü azaltmaqla onların uzunmüddətli rəqabət üstünlüyünü təmin edir.

11. İnnovasiya və texnologiya transferi üçün xüsusi fondlar yaradılmalıdır. Bu fondlar vasitəsilə ərzaq məhsulları istehsalı müəssisələri beynəlxalq təcrübəyə uyğun texnoloji modernizasiya və innovativ layihələri həyata keçirə bilər.

12. Rəqəmsal infrastrukturun inkişaf etdirilməsi vacibdir. Rəqəmsal gömrük, elektron sənəd dövriyyəsi və istehsalın izlənməsi sistemləri ixrac əməliyyatlarının sürətini və şəffaflığını artırır, istehsal proseslərinin keyfiyyətinə nəzarəti gücləndirir və beynəlxalq bazarlarda etibarlılığı təmin edir.

Beləliklə, bu strateji tədbirlərin inteqrasiyası Azərbaycan ərzaq məhsulları istehsalında rəqabət qabiliyyətinin davamlı inkişafını təmin edəcək, həm daxili bazarda, həm də beynəlxalq səviyyədə istehsalçıların mövqeyini möhkəmləndirəcəkdir.

**Dissertasiya işinin əsas müddəaları, əldə edilmiş nəticə və təkliflər müəllifin həmmüəllifsiz dərc olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Bilal Ü.E. Qlobal bazarda qida istehsalçılarının rəqabət qabiliyyətinin artırılmaq üçün innovativ strategiyalar // – Bakı: “Geostrategiya” beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal, – 2024. № 2 (80). – s. 119-123.

2. Bilal Ü.E. Qida istehsalçılarının rəqabət qabiliyyətini artırmaq üçün yaşıl iqtisadiyyat modeli // – Bakı: Bakı Biznes Universiteti. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr edilmiş “Yaşıl iqtisadiyyat davamlı inkişafın modeli kimi” mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları, – 24 aprel 2024. – s. 409-412.

3. Bilal U.E. Promoting sustainable agriculture practices for global competitiveness and biosecurity // – Gəncə: Azərbaycan Dövlət Aqrar Universiteti. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının

101-ci ildönümünə həsr edilmiş "Ümumdünya Bitki Sağlamlığı Günü: dayanıqlı kənd təsərrüfatında bitki amili" mövzusunda respublika elmi-praktiki konfransın materialları, – 14 may 2024. – s. 475-479.

4. Bilal Ü.E. Qida istehsalı sənayesində rəqabət qabiliyyətinin artırılması üçün yaşıl strategiyalar // – Bakı: Müasir dövrün trendləri: "Yaşıl iqtisadiyyat və dayanıqlı inkişaf" iqtisadiyyat və sosial elmlər sahəsində tədqiqatçıların I beynəlxalq konfransı, – 16-17 dekabr 2024. – s. 339-347.

5. Bilal U.E. Increasing export potential and integration into internal markets as a direction for enhancing the competitiveness of food producers in Azerbaijan // – Lisbon: III International Scientific and Practical Conference "Exploring the unknown: science, imagination, discovery", – 23-24 September 2025. – pp. 3-5.

6. Билал У.Э. Деятельность предприятий пищевой промышленности Азербайджана: реалии и перспективы // – Москва: "Финансовая экономика" Всероссийский научно-аналитический журнал, – 2025. № 8. – стр. 165-168.

7. Bilal Ü.E. Dünyanın qida sənayesində rəqabət qabiliyyətinin qiymətləndirilməsi təcrübələri və Azərbaycanda tətbiqi imkanları // – Bakı: "Tikintinin iqtisadiyyatı və menecment" elmi-praktiki jurnalı, – 2025. № 3 (32). – s. 472-482.

8. Bilal Ü.E. Azərbaycanın qida istehsalçıları arasında rəqabətliliyin artırılmasında innovasiya amili // – Bakı: "Audit" elmi-praktiki jurnal, – 2025. № 3 (49). – s. 121-131.

9. Bilal Ü.E. Azərbaycanın qida sənayesi: Mövcud durum və əsas istehsalçıların rəqabətlilik meylləri // – Gəncə: ADAU-nun Elmi əsərləri, – 2025. № 3. – s. 96-108.

10. Билал У.Э. Направления повышения конкурентоспособности пищевой промышленности Азербайджана // – Москва: "Финансовая экономика" Всероссийский научно-аналитический журнал, – 2025. № 11. – стр. 24-28.

11. Bilal Ü.E. Azərbaycanın qida sənayesində innovativ inkişaf problemləri // – Bakı: "Dayanıqlı İnkişaf və İnnovasiya İqtisadiyyatı" mövzusunda İqtisadiyyat və Sosial Elmlər sahəsində Tətqiqatçıların II Beynəlxalq Konfransı (ICRESS-2025), – 4-5 dekabr 2025.– s. 746-751.

12. Bilal Ü.E. Əhalinin ərzaq məhsulları ilə təminatında qiymət amili // – Bakı: “Yeni reallıqlar şəraitində Azərbaycanın iqtisadi və sosial inkişafı:problemlər, çağırışlar, perspektivlər” mövzusunda beynəlxalq elmi-praktiki konfrans, 6 dekabr 2025. – s. 575-578.

13. Bilal Ü.E. Qida istehsalçılarının rəqabət qabiliyyətinin artırılması: şərtlər və amillər // – Bakı: “Kooperasiya” Elmi-praktiki jurnalı № 4 (79)-2025. – s. 106-113.

Dissertasiyanın müdafiəsi 30 sentyabr 2026-cı il tarixdə, saat $14^{00}$-da Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.46 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəh., Nərimanov ray., Nəcəf Nərimanov küç. 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Kooperasiya Universitetinin (www.aku.edu.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 28 avqust 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 29.06.2026

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 40783 işarə

Tiraj: 100